AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 7 (1467), 23 fevral - 1 mart 2021-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*




## Cüdoçularımız "Böyük dəbilqə"də bir qızıl medal qazandılar

İsrailin paytaxtı Təl-Əvivdə cüdo üzrə "Böyük dəbilqə" turniri keçirilib. 60 ölkədən 418 (244 kişi, 174 qadın) cüdoçunun iştirak etdiyi yarışda Azərbaycan idmançıları da qüvvələrini sınayıblar. Komandamız Tokio-2020-yə lisenziya xarakterli yarışda 14 (11 kişi, 3 qadın) cüdoçu ilə təmsil olunub. 14 təmsilçimizdən yalnız biri mükafatçılar sırasına düşməyə müvəffəq olub. Yeganə medalı komandamıza 60 kq çəki dərəcəsində mübarizə aparan Davud Məmmədsoy qazandırıb. Keçirdiyi bütün görüşləri qələbə ilə başa vuran cüdoçumuz qızıl medala layiq görülüb. D.Məmmədsoy həlledici mərhələdə Gürcüstan təmsilçisi Temur Nozadzeyə qalib gəlib.

Komandamızın digər üzvlərindən Məmmədəli Mehdiyev (90 kq) və Zelim Kotsoyev (100 kq) bürünc medal uğrunda görüşdə məğlub olaraq, beşinci yerlə kifayətləniblər. 66 kq çəki dərəcəsində yarışan Nicat Şıxəlizadə isə yeddinci olub.

Beləliklə, "Böyük dəbilqə" turnirini 1 qızıl medalla başa vuran yığmamız medal sıralamasında 10-cu yeri tutub.

## "Gimnastika hamı üçün" növü üzrə birinci onlayn milli festival

Azərbaycan Gimnastika Federasiyası ilk dəfə olaraq martın 19-da "Gimnastika hamı üçün" növü üzrə birinci onlayn milli festival keçirəcək. Federasiyanın rəsmi saytında yer alan xəbərə görə festival saat 14:00-da təşkil olunacaq. Ödənişli əsaslarla həyata keçiriləcək festivalda yığılan məbləğ xeyriyyə məqsədilə istifadə olunacaq. Festivalın direktoru Mariana Vasilevanın sözlərinə görə, festivalın təşkil edilməsində məqsəd pandemiya dövründə idmançı ruhunu qorumaq və bu idman növünü təbliğ etməkdir.

## Anons

*Yaşar Başirov:*
*"Vətən müharibəsində 500-ə yaxın karateçimiz fəal şəkildə iştirak etdi"* Səh. 3

Xocalı faciəsi bəşər tarixinin ən qanlı hadisələrindən biridir Səh. 4

*"Azərbaycan əsgərinin rəşadətini sözlə ifadə etmək mümkün deyil"* Səh. 5

Azərbaycan Premyer Liqası: "Neftçi" liderliyini bir qədər də möhkəmləndirdi Səh. 6

Avropadan transfer xəbərləri Səh. 7

## Atletimiz Balkan çempionatında qızıl medala layiq görülüb

Azərbaycan atletləri İstanbulda keçirilən 26-cı Balkan çempionatında iştirak ediblər. Yarışda Azərbaycan dörd idmançı ilə təmsil olunub. Ölkəmizi üçtəkanla tullanma növündə təmsil edən Avropa çempionu Nazim Babayev yarışda bütün rəqiblərini qabaqlayaraq qızıl medala layiq görülüb.

Digər üçtəkanla tullanma növündə çıxış edən Yekaterina Sarıyeva isə bürünc medal sahibindən üç santimetr geri qalaraq dördüncü olub. Komandamızın digər üzvü Rüstəm Məmmədov bu növdə göstərdiyi nəticə ilə altıncı pillədə qərarlaşıb. Uzunluğa tullanmada isə mübarizə aparan idmançımız Yelena Pextireva yeddinci olub.

Komandamız çempionatda məşqçi Ziyad Xəlfəyev və Vidadi Əlisgəndərovun rəhbərliyi ilə yarışıb.




## Olimpizm

### BOK-un iclasında sambonun daimi tanınması ilə bağlı məsələyə baxılacaq

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) müvəqqəti tanıdığı sambonun daimi tanınması ilə bağlı məsələyə qurumun Tokioda keçiriləcək iclasında baxılacaq. Bu barədə Beynəlxalq Sambo Federasiyasının (FİAS) prezidenti Vasili Şestakov TASS-a verdiyi müsahibədə bildirib.

BOK-un iclası martın 10-12-də onlayn formatda keçiriləcək. Sambo BOK tərəfindən 2018-ci ilin noyabrında müvəqqəti olaraq tanınıb.

FİAS-ın prezidenti onu da əlavə edib ki, sambo BOK tərəfindən daimi tanındıqdan sonra onun Olimpiya Oyunlarının proqramına daxil olması üçün işlər başlayacaq. Hazırda bir sıra variantlar üzərində işləyirik və düşünürük ki, 2028-ci ildə Los-Ancelesdə keçiriləcək Yay Olimpiya Oyunlarında sambonu sınamaq olar.

### "Mənim missiyam Tokio Olimpiadasının etibarlı olmasını təmin etməkdir"

Tokio Olimpiya və Paralimpiya Oyunlarının Təşkilat Komitəsinin yeni sədri Seyko Haşimoto xalqın Tokio-2020-yə inamını bərpa etmək niyyətindədir.

Seyko Haşimoto vəzifəsinin icrasına başladığı ilk gün bu barədə fikirlərini bölüşüb. Son zamanlarda yarışa ictimai dəstəyin azaldığını və bunun dünyada koronavirusla əlaqədar vəziyyətin hələ sabitləşmədiyi bir mühitdə baş verməsindən narahatlığını ifadə edən qurumun Təşkilat Komitəsinin yeni sədri bidirib: "Mənim missiyam Tokio Olimpiadasının etibarlı olmasını təmin etməkdir. Buna nail olmaq üçün əlimdən gələni edəcəyəm".

Qeyd edək ki, Təşkilat Komitəsinin yeni rəhbərinin seçimi bu vəzifəni tutan Yoşiro Morinin istefasından sonra - fevralın 18-də baş tutub.

Xatırladaq ki, Təşkilat Komitəsinin sabiq sədri, 83 yaşlı Yoşiro Mori qadınlar barədə səsləndirdiyi fikirlərə görə kəskin tənqid edilib və istefa verməli olub.

Tokio-2020 Olimpiya və Paralimpiya Oyunları ötən il iyulun 24-dən avqustun 9-dək keçirilməli idi. Lakin koronavirus pandemiyasına görə bu yarışların keçirilməsi cari il iyulun 23-dən avqustun 8-dək tarixlərinə dəyişdirilib. Paralimpiya Oyunları isə avqustun 24-dən sentyabrın 5-dək təşkil olunacaq.

### Boks üzrə Olimpiya təsnifat turniri ləğv ediləcək

Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarına lisenziya xarakterli boks üzrə təsnifat turniri ləğv ediləcək. Bu barədə Kyodo agentliyi məlumat yayıb. İyunda təşkili planlaşdırılan turnirin ləğv edilməsinə səbəb koronavirus pandemiyası ilə yanaşı, Avropa boks seçmə mərhələsinin apreldən iyunadək təxirə salınmasıdır. Məlumatda bildirilir ki, Olimpiadaya son vəsiqə sahibləri reytinqə əsasən müəyyənləşdiriləcək.

Bundan əvvəl pandemiya səbəbindən sinxron üzgüçülük üzrə son Olimpiya seçmə mərhələsi mart ayından may ayına qədər təxirə salınıb.

# Sumqayıt regionunun məşqçiləri ilə görüş keçirilib

*Azərbaycan Milli Karate Federasiyasının (AMKF) baş ofisində Sumqayıt nümayəndəliyinin bir neçə üzvü ilə görüş keçirilib. Federasiyanın prezidenti Yaşar Bəşirov pandemiya şəraitində fəaliyyətdən danışıb. O, COVID-19 virusunun yayılmasının hər sahədə olduğu kimi, karatenin inkişafına da mənfi təsirlərini qeyd edib. Y.Bəşirov ölkədə və xaricdə bir çox yarışların təxirə salınmasının idmançıların nəticələrinə təsirsiz ötüşməyəcəyini nəzərə çatdırıb.*




AMKF-nin Sumqayıt şəhəri üzrə nümayəndəsi Akif Kərimov regionda fəaliyyət göstərən klublar və nəzərdə tutulan işlər barədə məlumat verib. O, regionda karatenin təbliği istiqamətində aparılan işlərdən danışıb, eləcə də nümayəndəliyə tabe olan klubların uğurlarını, həmçinin mövcud çətinlikləri qeyd edib.

Görüşdə bu və digər problemlərin həlli yolları və gələcək planlar müzakirə edilib. Müxtəlif klubların rəhbərləri və təşkilatların nümayəndələri, o cümlədən Əməkdar məşqçilər Rafael Məmmədov, Rövşən Allahverdiyev və digərləri karatenin inkişafına dəstək üçün faydalı təkliflərdən danışıblar.

Yığıncaqda, həmçinin bildirilib ki, məlum durğunluqdan sonra tələbələri yüksək nəticələr göstərən məşqçilər üçün həvəsləndirici tədbirlərə yenidən baxılacaq.

Tədbirdə Sumqayıt regionunda karatenin daha da populyarlaşması və inkişafı üçün nümayəndəliyin qarşısına əlavə vəzifələr qoyulub.

# *AMADA və "Azərbaycan İdman Könüllüləri" İctimai Birliyi arasında memorandum imzalanıb*




*Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) və "Azərbaycan İdman Könüllüləri" İctimai Birliyi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.*

Agentlikdən verilən məlumata görə, AMADA-nın direktoru Şəfəq Hüseynli və İctimai Birliyin idarə heyətinin sədri Miraqil Seyidzadənin imzaladığı memorandum qurumlar arasında əməkdaşlıq münasibətlərinin yaradılmasını nəzərdə tutur. Sənəd ölkəmizdə keçirilən beynəlxalq və yerli səviyyəli idman tədbirlərində könüllülərin dopinq nəzarəti prosesinə cəlb olunması və Azərbaycan gəncləri arasında könüllülük hərəkatının inkişafının dəstəklənməsi üçün əməkdaşlığı ehtiva edir.

Mərasimdə çıxış edən AMADA-nın direktoru Ş.Hüseynli bildirib ki, könüllülərin idman tədbirlərində dopinq nəzarətinin həyata keçirilməsinə cəlb edilməsi ilə bərabər sağlam həyatın, təmiz idmanın təbliği, o cümlədən antidopinq maarifləndirməsi baxımından da böyük imkanları var. AMADA İctimai Birliklə əməkdaşlıq edərək bu potensialdan səmərəli istifadə etmək niyyətindədir. Bu, həm də könüllülərin antidopinq sahəsində biliklərinin artırmaları və gələcəkdə bu sahədə fəaliyyət göstərmələri üçün yeni imkanlar açacaq.

İctimai Birliyin idarə heyətinin sədri M.Seyidzadə deyib: "Dopinq nəzarəti idmanın ən vacib sahələrindən biridir. "Azərbaycan İdman Könüllüləri" İctimai Birliyi bu sahədə görülən işlərə töhfə vermək üçün AMADA ilə sıx əməkdaşlıq edəcək. Könüllülərin bu sahədəki tədbirlərə cəlb edilməsi, biliklər qazanması və təcrübə toplaması onların gələcək karyerası baxımından da əhəmiyyətlidir".

# Güləşçilərimizin təlim-məşq toplanışı davam edir



Sərbəst güləş üzrə Azərbaycan yığması Rusiyanın Mahaçqala şəhərində təlim-məşq toplanışını davam etdirir. Fevralın 8-dən Dağıstan komandası ilə birlikdə toplanış keçən milli üzvləri həm fiziki, həm də taktiki-texniki hazırlığın yüksəldilməsi üzərində çalışır. Müştərək toplanış fevralın 25-dək davam edəcək. 18 - 21 martda Macarıstanın paytaxtı Budapeştdə təşkil olunacaq Avropa Olimpiya Təsnifat turnirinə hazırlıq xarakteri daşıyan təlimlərdə baş məşqçi Namiq Abdullayev və böyük məşqçi Zəlimxan Hüseynovun rəhbərliyi altında Əfqan Xaşalov, Georgi Edişerašvili, İslam Bazarqanov (hamısı 57 kq), Əhmədnəbi Qvarzatilov (61 kq), Əli Rəhimzadə, Turan Bayramov (hər ikisi 65 kq), Hacımurad Hacıyev (74 kq), Abubakr Abakarov (86 kq), Osman Nurməhəmmədov (92 kq), Şərif Şərifov (97 kq) və Camaləddin Məhəmmədov (125 kq) iştirak edir. Yığmanın digər üzvləri isə məşqçi Arif Abdullayevin rəhbərliyi altında Bakıda məşqləri davam etdirir.

Qeyd edək ki, sərbəst güləşçilərin bir qismi fevralın 26-28-də Kiyevdə Ukraynanın məşhur güləşçilərinin və məşqçilərinin xatirə turnirində iştirak edəcək. Bu yarışdan sonra isə Avropa Olimpiya Təsnifat turnirinə son hazırlıq prosesi martın 1-14-də Bakıdakı Olimpiya Güləş Mərkəzində təşkil olunacaq.

Yunan-Roma güləşi üzrə millimiz də təlim-məşq toplanışında iştirak edirlər. Yığmamız Minskin "Stayki" Olimpiya Mərkəzində Belarus, Qazaxıstan və Özbəkistan millilərı ilə birgə hazırlıq keçir. Fevralın 25-dək davam edəcək toplanışda həm taktiki-texniki, həm də fiziki hazırlığın yüksəldilməsi istiqamətində çalışmalar həyata keçirilir.

Martın 18-dən 21-dək Macarıstanın paytaxtı Budapeştdə keçiriləcək Avropa Olimpiya təsnifat turnirinə hazırlıq xarakteri daşıyan təlim-məşq toplanışında baş məşqçi Aleksandr Tarakanov və böyük məşqçi Rövşən Bayramovun rəhbərliyi altında Eldəniz Əzizli (55 kq), Murad Məmmədov, Murad Bazarov (hər ikisi 60 kq), Namaz Rüstəmov, İslambek Dadov (hər ikisi 67 kq), Sənan Süleymanov (77 kq), Rafiq Hüseynov (82 kq), İslam Abbasov (87 kq), Murad Lokyayev, Zamir Məhəmmədov (97 kq), Beka Kandelaki və Sabah Şəriəti (130 kq) iştirak edirlər.

Qadın güləşçilərimiz isə Ukraynada təlim-məşq toplanışında iştirak edirlər. Kiyevdə hazırlıq keçən millimizin heyətində 9 idmançı yer alıb. Fevralın 25-dək davam edəcək toplanışda baş məşqçi Aslan Ağayev və məşqçi Rövşən Umudovun rəhbərliyi altında Türkan Nəsirova (50 kq), Leyla Qurbanova, Tatyana Varansova (hər ikisi 53 kq), Alyona Kolesnik (57 kq), Tatyana Omelçenko (62 kq), Elis Manolova (65 kq), İrina Netreba (68 kq), Gözəl Zutova və Səbirə Əliyeva (hər ikisi 76 kq) iştirak edir.

"Konça-Zaspa" Olimpiya Mərkəzində təşkil olunan hazırlıqda 12 ölkənin komandası yer alıb. Ukrayna və Azərbaycan yığmaları ilə yanaşı, Türkiyə, Özbəkistan, Moldova, Rumıniya, Bolqarıstan, Litva, Norveç, İsveç, Macarıstan və Belarus milliləri Kiyevdə təşkil olunan birgə toplanışa qatılıblar. Həm fiziki, həm də taktiki-texniki hazırlıq üzərində qurulan təlim-məşq toplanışı qarşıdan gələn mühüm yarışlara, o cümlədən Avropa Olimpiya təsnifat turnirinə hazırlıq xarakteri daşıyır.

Qeyd edək ki, komandamız toplanışı başa çatdıqdan sonra fevralın 26-dan 28-dək Kiyevdə keçiriləcək Ukraynanın məşhur güləşçilərinin və məşqçilərinin xatirə turnirində qüvvəsini sınayacaq. Bu, komandamızın 2021-ci ildə iştirak edəcəyi ilk yarış olacaq.

## Ədalət təmsilçimiz CEV tərəfindən yeni təyinat alıb

Beynəlxalq dərəcəli hakim Eldar Əliyev Avropa Voleybol Konfederasiyası (CEV) tərəfindən yeni təyinat alıb. Həmyerlimiz kişi voleybolçular arasında CEV kuboku yarışlarının ilk yarımfinal




oyunları çərçivəsində keçiriləcək "Zenit" (Rusiya) - "Maasek" (Belçika) qarşılaşmasının baş hakimi olacaq. Ona serbiyalı Deyan Roqiç kömək edəcək. Qarşılaşma fevralın 24-də Sankt-Peterburqda təşkil olunacaq.

## Ş a h m a t

### "Agdam Cup" turnirinin mükafatçıları müəyyənləşib

"Karabakh is Azerbaijan" onlayn şahmat seriyasının 6-cı - "Agdam Cup" turnirinin qalibləri müəyyənləşib. Chess.az saytının təşkil etdiyi və "Azerfon" şirkətinin baş sponsoru olduğu seriya yarışının 6-cı mərhələsində ən yüksək nəticəni Elnur Mehtiyev qazanaraq birinci yeri tutub. Şəhriyar Rəhmanov və Murad Həşimov isə müvafiq olaraq, ikinci və üçüncü yerləri tutublar.

İsveçrə sistemi üzrə keçirilən turnirdə 80 şahmatçı iştirak edib. Yarışda vaxta nəzarət 3 dəqiqə, hər gedişə 2 saniyə olub.

Qeyd edək ki, indiyədək keçirilmiş 6 turnirdə ümumi hesabda Azərbaycan şahmatçısı Elnur Mehtiyev 30 xalla liderlik edir. Digər şahmatçımız Orxan Bağırov 20 xalla ikinci, Türkiyə təmsilçisi Kutay Sakmak 16 xalla üçüncü yerdədirlər.

Seriya ümumilikdə səkkiz turnir və böyük finaldan ibarətdir. Hər bir turnir işğaldan azad olunmuş şəhərlərimizin adını daşıyır.

### "Carnavales de Gran Canaria 2021" şahmat turnirinə yekun vurulub

Blits üzrə onlayn formatda keçirilən "Carnavales de Gran Canaria 2021" turnirinə yekun vurulub. Azərbaycan şahmatçılarının da iştirak etdikləri yarışda 11 turdan 10 xal toplayan hindistanlı qrossmeyster Raunak Sadvani qalib adını qazanıb. Şahmatçılarımız arasında ən yüksək nəticəni Vüqar Rəsulov və Zaur Məmmədov göstəriblər. Onlar 9 xalla ilk onluqda yer alıblar.

### İddiaçılar turnirinin bərpa olunacağı tarix dəqiqləşdi

Yekaterinburqda dünya şahmat tacına namizədlərin mübarizə apardıqları, lakin koronavirus pandemiyası səbəbindən dayandırılmış turnir aprelin 19-da davam etdiriləcək. Bu barədə Beynəlxalq Şahmat Federasiyasının (FİDE) prezidenti Arkadi Dvorkoviç TASS informasiya agentliyinə müsahibəsində bildirib.

O qeyd edib ki, turnir dayandırıldığı turdan davam etdiriləcək: "Qəbul etdiyimiz qərara əsasən, aprelin 19-da 8-ci turun qarşılaşmaları keçiriləcək. On dördüncü turadək oyunlar 10 gün ərzində təşkil olunacaq. Ümid edirik ki, bu dəfə hər şey qaydasında olacaq".

FİDE-nin prezidenti bildirib ki, şahmatçılar aprelin 17-dən başlayaraq Yekaterinburqa gəlməlidirlər. Turnirin son turu aprelin 28-də keçiriləcək.

İddiaçılar turniri ötən il martın 26-da 7-ci turdan sonra yarımçıq dayandırılıb. Yeddi turdan sonra Yan Nepomnyaşi (Rusiya) və Maksim Vaşe-Laqrav (Fransa) 4,5 xalla birinci və ikinci yerləri bölüşürlər. Yarışın digər iştirakçıları Aniş Giri (Niderland), Aleksandr Qrişuk (Rusiya), Fabiano Karuana (ABŞ) 3,5, Kiril Alekseyenko (Rusiya) və Liren Dinq (Çin) 2,5 xal toplayıblar.

Xatırladaq ki, ötən il keçirilmiş dünya kubokunun sahibi kimi iddiaçılar turnirinə vəsiqə qazanan Teymur Rəcəbovun bu nüfuzlu turnirdə iştirakı alınmayıb. Şahmatçımızın koronavirusla əlaqədar turnirin təxirə salınması barədə təklifi FİDE tərəfindən qəbul olunmadığından o, iştirakdan imtina etmişdi.

### Beynəlxalq qrossmeysterimizə FİDE-də yeni vəzifə verildi

Beynəlxalq Şahmat Federasiyası FİDE Azərbaycanın keçmiş şahmatçısı İlahə Qədimovaya yeni vəzifə verib. Qrossmeyster Tədbirlər Komissiyasının katibi təyin olunub. Yeniyetmələr arasında ikiqat dünya çempionu (1992 - 1993) olmuş İ.Qədimova bunadək FİDE-nin Qadın Şahmatı Komissiyasında analoji postu tutub. O, 1994-cü ildə beynəlxalq qrossmeyster adını alıb.

Qeyd edək ki, İlahə Qədimovanın yeni işə başlamasından sonra boş qalmış vəzifəni ingiltərəli Kristel Yager Hafştad tutub.

— Bizim müsahibə —

# Yaşar Başirov:
# “Vətən müharibəsində 500-ə yaxın karateçimiz fəal şəkildə iştirak etdi”

***Ölkəmizdə fəaliyyət göstərən idman qurumları, federasiyalar və idmançılar bütün dünyanı bürüyən COVİD-19 pandemiyasından hələ də əziyyət çəkir. Son anda yarışların təxirə salınması, mühüm tədbirlərin ləğv edilməsi federasiyaların və idmançıların planlarını alt-üst etdi. Son illərdə ölkəmizdə inkişaf mərhələsində olan və uğurlu nəticələri ilə diqqət çəkən Azərbaycan Milli Karate Federasiyası da bu bəlaya görə müəyyən mənada zərər çəkdi. Bir il ərzində iki mötəbər yarışa ev sahibliyi etmək hüququnu pandemiyaya görə əldən verən federasiya maddi zərərlə üzləşməklə yanaşı, məşqsiz qalan istedadlı idmançılarının ən pik formasını da itirməsi təhlükəsi ilə üzləşdi. Bu yaxınlarda 14 mindən çox karateçi ordusuna başçılıq edən Azərbaycan Milli Karate Federasiyasının prezidenti, Əməkdar bədən tərbiyəsi və idman xadimi Yaşar Başirovla görüşdük. Müsahibimiz pandemiyanın karateyə olan təsirlərindən, qarşıdakı gələcək planlardan və karateçilərimizin Vətən müharibəsindəki iştirakından danışdı. Əməkdar İdman Ustası Yaşar Başirovla söhbətimizə elə ilk olaraq İkinci Qarabağ müharibəsində ordumuzun qazandığı parlaq qələbə ilə başladıq. Vətən müharibəsinin ilk günlərindən ordumuza dəstəyini əsirgəməyən federasiya rəhbərliyi, həm də öz idmançılarının müharibədə fəal iştirakı ilə qürur duyur. Yaşar Başirovla müsahibəni oxucularımıza təqdim edirik.***

***- Yaşar müəllim, Vətən müharibəsində digər federasiyalar kimi, Milli Karate Federasiyasının dəstəyi az olmadı. Mümkünsə federasiyanın İkinci Qarabağ müharibəsində gördüyü işlər barədə məlumat verərdiniz.***

- Vətən müharibəsi xalqımızın qəhrəmanlıq salnaməsinə qızıl hərflərlə yazılan bir hərb savaşı oldu. Bu müharibə ilə düşmənə layiqli yerini göstərib, torpaqlarımızı azad etdik. Müharibənin gedişində digər federasiyalar kimi, biz də öz növbəmizdə Orduya dəstək məqsədi ilə müəyyən işlər həyata keçirdik.

Bu 44 günlük müharibədə əldə olunan qələbələrdə idmançılarımızın da böyük rolu var. Onların arasında karate ilə hazırda məşğul olan və karyerasını başa vuran idmançılar da kifayət qədər idi. Bir məsələni qeyd edim ki, bu günə qədər orduya və müəyyən güc strukturlarına hazırlıq səviyyəsinə və döyüş qabiliyyətinə görə çoxlu sayda karateçilərimiz qəbul olunub. Elə təsadüfi deyil ki, müxtəlif ölkələrdə dəfələrlə bayrağımızı qaldırıb, himnimizi səsləndirən həmin idmançılar bu dəfə idman arenasında deyil, döyüş meydanında ölkəmizin bütövlüyü uğrunda son damla qanına qədər vuruşdular. Vətən müharibəsində ümumilikdə 500-ə yaxın karateçimiz fəal şəkildə iştirak etdi. Vaxtilə karate ilə məşğul olan idmançılarımız var ki, onların müharibədə iştirakı barədə sonradan xəbər tutduq. Əksəriyyəti bu gün orduda yüksək rütbəli zabitdirlər. Hərbi xidmətdə olan sıravi əsgərlərimiz də çoxdur. Müharibədə iştirak edən karateçilərimizin bəziləri Vətən uğrunda şəhid, bəziləri isə qazi oldular.

Müharibədən sağ-salamat geri qayıdan idmançılarımız yenidən ölkəmizi müxtəlif yarışlarda təmsil etməyə hazırlaşırlar. Bu gün yığmamızın üzvlərindən olan bir neçə idmançımız müharibədən qayıtdıqdan sonra məşqlərə başlayıblar. Onların arasında Avropa çempionu, dünya kubokunun qalibi Murad Hacızadəni, eləcə də müharibədə zabit kimi iştirak edən Orxan Heydərlini misal göstərmək olar. Adlarını çəkdiyim hər iki idmançı yığma komandamızın əsas üzvləri sırasında yer alıblar. Biz belə qəhrəman, döyüşkən ruhlu idmançılarımızla, əsgərlərimizlə qürur duyuruq.

***- Pandemiya bir sıra sahələrdə olduğu kimi, idmandan da təsirsiz ötüşmədi. Yəqin ki, razılaşarsınız, Milli Karate Federasiyası bu virusdan dolayı yaranan problemə görə ən çox ziyan çəkən federasiyalardan biridir. Elə təkcə Avropa çempionatının və nüfuzlu Karate1 Premyer Liqa turnirinin ləğv olunması bunu deməyə əsas verir.***

- Məlumdur ki, COVİD-19 pandemiyasından bütün dünya ölkələri böyük zərər gördü. Təbii ki, Azərbaycan da bu virusdan yan keçə bilməzdi. Bu virusun zərərləri bizə də təsirsiz ötüşmədi. Bildiyiniz kimi, 6 il bundan əvvəl karate üzrə 55-ci Avropa çempionatının təşkilatçılığı Bakıya həvalə olunmuşdu. Biz 2016-cı ildən bu yarışa hazırlıq görürdük. Lisenziya xarakterli olan bu çempionat martın 25-29-da Milli Gimnastika Arenasında keçirilməli idi. Elə Tokio-2020-yə son lisenziyalar da Bakıda qazanıla bilərdi. Biz hər zaman olduğu kimi, bu yarışa yüksək səviyyədə hazırlaşırdıq. Lakin yarışa 10 gün qalmış qitə çempionatı əvvəlcə təxirə salındı, sonra isə ləğv olundu. Bu bizim üçün böyük zərbə oldu.



***- Əvvəlki müsahibənizdə Bakıdakı Avropa çempionatı üçün hazırlanan medalların İsveçdə keçiriləcək 56-cı Avropa çempionatında idmançılara suvenir kimi təqdim olunacağını demişdiniz. Lakin İsveç də məlum səbəbə görə, Göteborq şəhərinin 400 illik yubileyi ərəfəsində təşkil olunacaq bu yarışdan imtina etdi. O zaman belə çıxır ki, bu yarışın medalları idmançılara Xorvatiyada təqdim olunacaq?***

- Əslində, biz fikirləşirdik ki, gələn il Avropa çempionatına ev sahibliyi etmək hüququ yenidən ölkəmizə verilər. Amma bu, belə olmadı. Qrafik üzrə yarışa İsveçin Göteborq şəhəri ev sahibliyi etməli idi. Lakin bu yarış da pandemiyaya görə təxirə salındı. Bildiyiniz kimi, həmin Avropa çempionatı bu ilin may ayında Xorvatiyanın paytaxtı Zaqrebdə təşkil olunacaq. Bu, Tokio-2020 üçün sonuncu lisenziya yarışlarından biridir. Sualınıza cavab olaraq bildirim ki, medalların taleyi ilə bağlı məsələni tək mən həll edə bilmərəm. Düzdür, biz bu medalları xatirə hədiyyəsi olaraq verə bilərik.



Əgər Dünya və Avropa Karate Federasiyasının prezidenti Antonio Espinos bu məsələyə müsbət yanaşarsa, medallar xatirə hədiyyəsi kimi, Zaqrebdə idmançılara təqdim olunacaq. Əks halda isə medalları 2025-ci ildə Bakıda təşkil olunacaq 60-cı Avropa çempionatında təqdim edəcəyik.

***- Yeri gəlmişkən, 60-cı Avropa çempionatına əsas hazırlığın vaxtı və məkanı müəyyənləşibmi?***

- Qeyd etdiyim kimi, 55-ci Avropa çempionatının hazırlıqlarına 4 il qalmış başlamışdıq. İndi bizim yetərincə təcrübəmiz var. Bu səbəbdən də yarışlara iki il qalmış əsas hazırlıq prosesinə başlayacağıq. İstəyirik ki, həmin çempionat Milli Gimnastika Arenasında təşkil olunsun. Hətta, əgər mümkün olacaqsa, çalışacağam ki, yarışın loqosu da dəyişilməsin. Yəni 55-ci Avropa çempionatının loqosu olduğu kimi qalsın.

***- İstərdim ki, bir qədər əvvəlki suala yenidən qayıdım. Pandemiya Avropa çempionatının ləğv olunması ilə yanaşı, ölkəmizin nüfuzlu karate1 Premyer Liqa turnirinə ev sahibliyini itirməsi ilə də nəticələndi. Nəzərə alaq ki, bu yarış da Tokio-2020 üçün həlledici lisenziya yarışlarından biridir.***

- Bəli, bu il martın 12-14-də Bakıda Karate1 Premyer Liqa yarışı keçirilməli idi. Yarışdan əvvəl, yəni martın 7-dən 11-dək dünya hakimlərinin seminarı və imtahanı da Bakıda təşkil olunacaqdı. Bakıdakı seçimlərdən sonra həmin hakimlər Tokioda iştirak edəcəkdilər. Artıq qeydiyyat prosesi başlamışdı, 200 dövlətin hamısına bülleten paylanılmışdı. Hətta medalların və viza məsələlərinin hazırlığına da başlamışdıq. Təəssüf ki, pandemiyaya görə bütün yarışlar aprel ayına kimi ləğv edildi. Bununla bağlı Avropa Karate Federasiyası (EKF) İcraiyyə Komitəsinin təcili videokonfransı keçirildi. Bu barədə Antonio Espinosa məruzə etdim. Bu yarış da həqiqətən bizim üçün çox vacib idi. Amma nə etmək olar, əsas can sağlığıdır. Yarışı Bakıda keçirə bilməyəcəyimiz dəqiqləşəndən sonra Türkiyənin Karate Federasiyasının prezidenti Esat Delihasana zəng edib, bu yarışa ev sahibliyi etməsini məsləhət gördüm. Bununla bağlı öz təklifimi Antonio Espinosa da bildirdim. O, bu qərarın hər bir iştirakçı üçün daha əlverişli olacağını dedi. Beləliklə, bu yarışın keçirilməsi hüququ Türkiyəyə verildi.

***- Səhv etmirəmsə, bu yarış həm də mövsümün ilk yarışı olacaq.***

- Bəli, pandemiyadan sonra mövsümün ilk lisenziya yarışı Türkiyədə təşkil olunacaq. Çünki fevral ayında Portuqaliyanın paytaxtı Lissabonda keçirilməli olan Premyer Liqa yarışı 30 aprel - 2 may tarixlərinə təxirə salındı. Portuqaliyadakı lisenziya xarakterli yarışdan əvvəl isə karateçilər Mərakeşin paytaxtı Rabatda Premyer Liqa yarışında qüvvələrini sınayacaqlar. May ayında isə Zaqrebdə 56-cı Avropa çempionatı keçiriləcək. Bu dörd yarışdan sonra iyun ayında Fransada olimpiada üçün sonuncu seçim olacaq.

***- Qeyd etdiyiniz yarışların hər biri lisenziya xalları verdiyi üçün çox əhəmiyyətlidir. Bəs karateçilərimiz pandemiya şəraitində bu məsul yarışlara necə hazırlaşırlar?***

- Gənclər və İdman Nazirliyi bizə lazımi qaydada öz dəstəyini göstərir. Karateçilərimiz məşq bazamızda qapalı şəraitdə məşq edirlər. Bir dəfə isə gənclər üçün belə bir məşq təşkil etdik. Çünki onların da avqust ayında Avropa çempionatı olacaq və buna görə də formada qalmaq çox vacibdir. Havalar isti olanda məşqlərimizi açıq hava şəraitində keçirirdik. Təbii ki, bütün zallar bağlı olduğu üçün kütləvi məşqlər keçə bilmirik. Yalnız yığma komandanın heyətində olan uşaqlar üçün bağlı şəraitdə toplantı məşqləri keçirik. Qeyd etdiyim kimi, imkan dairəsində çalışırıq ki, idmançılarımız formadan düşməsinlər.

***- Komandanın yeni mövsüm və qarşıdakı yarışlar üçün heyəti necə formalaşacaq?***

- Pandemiya ilə əlaqədar respublika çempionatı keçirə bilmədik. Amma biz komandanın heyətini qarşıdakı yarışlara görə mütləq təyin etməliyik. Bu isə seçimsiz mümkün olmur. Bunun üçün də müxtəlif çəki dərəcəsində olan idmançılar arasında seçim etdik. Seçimə ötən il respublika çempionatında yer tutan idmançılar, Olimpiya reytinqində ilk yüzlükdə qərarlaşan karateçilər və ötən il hərbi xidmətdə olan idmançılar iştirak etdilər. Hər çəkidə ən çox 7-8 idmançı iştirak edirdi və onların arasında seçim aparıldı. Seçimlərdə ilk üç yeri tutan idmançıların adlarını müəyyənləşdirdik. Qeyd edim ki, biz bal sistemi yaratmışıq. Bundan sonra onların yarışlardakı çıxışına əsasən, ballar veriləcək. Bu bal sisteminin əsasında Parisdə keçiriləcək Olimpiya oyunlarına son seçim xarakteri daşıyan yarışa hansı idmançını buraxacağımızı biləcəyik. Çünki Parisdəki seçmə yarışa hər çəkidə bir idmançı buraxa bilərik. Türkiyə, Mərakeş və Portuqaliyada keçiriləcək Premyer Liqa yarışlarında ən çox bal toplayan idmançılar Avropa çempionatına buraxılacaqlar. Avropa çempionatı da daxil olmaqla, ümumilikdə 4 yarışda ən çox bal toplayan idmançı Parisdəki yarışda gücünü sınamaq imkanı qazanacaq. Bundan sonra isə Tokio Olimpiadasına lisenziyaların taleyi müəyyənləşəcək.

***- Yaşar müəllim, idmançılarımız bu bir il ərzində koronavirusla necə mübarizə apardılar? COVİD-19 onlardan yan keçə bildimi?***

- Düzünü desəm, məşqçilərimiz və idmançılarımızın bəziləri koronavirusa yoluxdular. Amma onlar bu virusu yüngül keçirdilər. Həmin idmançılar və məşqçilər tam karantin şəraitində oldular.

***- Buyaxınlarda yeniyetmə karateçilərə əlavə məşqçi təyinatları oldu. Komandamızın əsas üzvləri olan Niyazi Əliyev və Şahin Atamov yığmaya məşqçi təyin edildilər. Necə düşünürsünüz, milli komandanın üzvləri onlara bəslənilən ümidləri doğrulda biləcəklərmi?***

- Bir müddət əvvəl yığmanın məşqçilər heyəti arasında dəyişikliklər oldu. 14-15 yaş qrupunu Niyazi Əliyev və Şahin Atamova həvalə etdik. Burada əsas məqsəd gənc idmançılarımızın daha da yaxşı inkişaf etdirilməsidir. Həmin idmançılarla Anar Allahverdiyev, Nağı Mehdiyev və Seymur Xudaverdiyev məşğul olurdular.

Bu qərar həm də onların yükünü azaltmaq üçün atılan bir addımdır. Həm Niyazi Əliyev, həm də Şahin Atamov kifayət qədər təcrübəli idmançılardır. Uzun illərdir ki, onlar öz klublarında məşqlər keçirlər. Niyazi Əliyev bir neçə ildir ki, səhhətində yaranan ciddi problemə görə böyük idmanla vidalaşmaq məcburiyyətində qalıb. Amma məşqçi kimi klubda fəaliyyət göstərirdi. Hətta yığma komandanın üzvləri arasında onun yetirmələri də var. Biz də məhz onların bu potensialını dəyərləndirərək yığmaya cəlb etdik. Böyüklərdən ibarət əsas yığmaya isə ötən ilin yayında Qurban Tağıyev dəvət olundu. O, əvvəlki illərdə həm gənclərdə, həm də böyüklərdə yığma komandanın məşqçisi olub. Potensialı böyükdür və ən əsası öz işinə çox məsuliyyətlə yanaşır. Onun gördüyü işlərdən tam razıyam. Qurban Tağıyevdən əvvəl yığmamıza türkiyəli mütəxəssis Bahəddin Kandaz başçılıq edirdi. Onun sayəsində yığmanın zəif yerlərini müəyyənləşdirərək, problemləri aradan qaldırmaq mümkün oldu. İdmançıların ümumi hazırlıq işinin qurulması məsələsində Bahəddin Kandazın da təcrübəsi öyrənildi. Düşünürəm ki, məşqçilərimiz bu təcrübədən də yararlanaraq idmançılarımızı yüksək səviyyədə yarışlara hazırlaya biləcəklər.

***- Son günlər Tokio-2020-nin keçirilməsi ilə bağlı məsələlər gündəmdən düşmür. Təbii ki, bu məsələ karateçilərimizi də narahat edir.***

- Bu barədə məlumatları mətbuatdan tez-tez izləyirəm. Əgər yoluxma daha da ciddiləşərsə, vaksinasiyanın təsiri olmazsa onda təbii ki, olimpiada keçirilməyə bilər. Hər halda bunu pandemiyanın gedişatı fonunda yaranan mənzərə göstərəcək. Təbii ki, heç birimiz istəmərik ki, Olimpiada yenidən təxirə salınsın və ya ləğv edilsin. Çünki bu, idmançılar üçün çox dəhşətli bir qərar olar. Bu gün iki idmançımız - Rafael Ağayev və İrina Zaretska Tokio-2020-yə lisenziyanı demək olar ki, təmin ediblər. Onlara artıq kiminsə çatacağı real görünmür. Rafaelin artıq 36 yaşı var. Hər birimiz istəyərik ki, o, medal kolleksiyasına Olimpiya medalını əlavə etsin. Bu barədə idmançılarımız nikbindirlər. İnanıram ki, olimpiada təşkil olunacaq və idmançılarımız bu Oyunlarda Azərbaycanı uğurla təmsil edəcəklər.

***Azər Əlizadə***

# Xocalı faciəsi bəşər tarixinin ən qanlı hadisələrindən biridir



26 fevral 1992-ci il. Bu tarix Xocalı şəhərində dünyada misli görünməyən dəhşətli bir vəhşiliklə təqvimə düşdü. Ermənistan silahlı birləşmələri, Dağlıq Qarabağdakı erməni yaraqlıları, habelə sovet ordusunun 366-cı motoatıcı alayı Xocalı şəhərini sakinləri ilə birlikdə güllələbaran edərək, insanlığa silinməz ləkə olan soyqırım aktını törədiblər. Cəmi bir neçə saat ərzində 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca milli mənşəyinə görə qəddarcasına, dözülməz işgəncələr verilməklə öldürülüb, 487 nəfərə ağır xəsarət yetirilib. 1275 sakin-köməksiz qocalar, uşaqlar, qadınlar girov götürülərək zülm, təhqir və həqarətə məruz qoyulub. Erməni qəsbkarları azərbaycanlıları qətlə yetirmək üçün hətta faşistlərin belə istifadə etmədikləri ən qəddar, tükürpədici üsullardan istifadə ediblər. Xocalıda mülki əhalinin planlı şəkildə qətlə yetirilməsini sübut edən çoxsaylı faktlardan biri də məhz budur ki, həmin gün əhalinin zorakılıqdan qaçıb qurtarmaq istəyən hissələri ərazidən çıxış yollarında əvvəlcədən xüsusi hazırlanmış pusqularda gizlənən ermənilər tərəfindən güllələniblər. Onların heç birinə aman verilməyib. Xocalıdan çıxan dinc əhalinin Naxçıvanik kəndi ərazisində pulemyot, avtomat və digər silahlardan güllələbaran edilməsi faktı bunu bir daha təsdiqləyir. Bütün bunlar ermənilərin 29 il öncə Xocalı şəhərində törətdikləri qeyri-insani hərəkətlərin kökündə məhz genosid soyqırım niyyətinin dayandığını aşkar surətdə üzə çıxarır. Erməni silahlı birləşmələrinin çirkin niyyəti Xocalı şəhərindəki azərbaycanlıları məhz milli-dini zəmində son nəfərədək qətlə yetirmək olub. Ermənilər beynəlxalq humanitar hüquqda yolverilməz sayılan soyqırım cinayətini məqsədli şəkildə, bilərəkdən həyata keçirərək, misli görünməmiş qətillər törədiblər. Beynəlxalq hüquq normaları Xocalı faciəsinin soyqırım cinayəti kimi tanınması üçün kifayət qədər ciddi əsaslar verir. Ümumiyyətlə, Nürnberq Hərbi Tribunalının Nizamnaməsində beynəlxalq cinayətlərin nədən ibarət olduğu göstərilib. Orada soyqırım cinayəti insanlıq əleyhinə olan cinayətlər kateqoriyasına aid edilib. BMT-nin “Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında” 9 dekabr 1948-ci il tarixli konvensiyasında isə soyqırım cinayətinin mahiyyəti tam əksini tapıb. Beynəlxalq hüquqa görə soyqırım sülh və bəşəriyyət əleyhinə yönələn əməl olmaqla müharibə cinayəti sayılır. Soyqırım hər hansı milli, irqi, etnik və dini əlamətlərinə görə fərqlənən xüsusi bir qrupun tamamilə və ya qismən məhv edilməsinə yönəlmiş aşağıdakı hərəkətlərə deyilir: həmin qrupun üzvlərinin öldürülməsi; onların şikəst edilməsi, onlara bədən xəsarəti, yaxud əqli pozğunluq yetirilməsi; hər hansı qrup üçün qəsdən onun tam, yaxud qismən fiziki məhvini nəzərdə tutan şəraitin yaradılması; azyaşlı uşaqların bir insan qrupundan alınıb başqasına verilməsi. Bu hallardan hər hansı birinin mövcudluğu hadisənin soyqırım hesab olunması üçün kifayət edir. Bu meyarlar baxımından Xocalı faciəsi soyqırım cinayəti kimi qiymətləndirilməlidir.

Soyqırım beynəlxalq hüququn qəbul edilmiş ümumi pirinsip və normalarının, habelə insan hüquq və azadlıqlarının kobud surətdə pozulmasıdır. Soyqırımın əsas ictimai təhlükəliliyi ondan ibarətdir ki, bu cinayətin törədilməsi nəticəsində ayrıca mədəniyyəti, adətləri, ənənələri, bir sözlə, yaşam tərzi olan milli, etnik, irqi və ya dini qrup tamamilə və ya qismən öz mövcudluğunu itirə bilər. Xocalı soyqırımı ilə bağlı aparılmış istintaqla müəyyən edilmişdir ki, bu əməldə Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin “Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında” 9 dekabr 1948-ci il tarixli konvensiyasında və “Azərbaycan Respublikası Cinayət Məcəlləsi”nin 103-cü maddəsində nəzərdə tutulmuş soyqırım cinayətinin tərkibi var. Cinayət işi öyrənilərkən müəyyən edilmişdir ki, Xocalı soyqırımını həyata keçirən Ermənistanın hərbi birləşmələri dünya dövlətlərinin qəbul etdiyi beynəlxalq hüquq normalarına riayət etməyiblər. Xocalı faciəsi zamanı mülki əhalinin qorunması haqqında Cenevrə konvensiyalarında nəzərdə tutulan tələblər kobud şəkildə pozulub. Bəli, Xocalı hadisəsi soyqırımdır, burada törədilən vəhşiliklər belə deməyə əsas verir.

## Dünya mətbuatı Xocalı faciəsinə biganə qalmayıb

Xocalıda baş verən qanlı facia haqqında dünyaya ilk məlumat görkəmli Azərbaycan teleoperatoru Çingiz Mustafayevin çəkdiyi film sayəsində yayıldı. Kamera qulaqları kəsilən uşaqları, başları soyulan kişiləri lentə ala bilmişdi. Erməni saqqallıları qoca qadının sifətinin sağ tərəfinin dərisini kəsib çıxartmışdılar. Bütün cəsədlərin üzərində zorakılıq əlamətləri var idi. Təsadüfi deyil ki, Erməni terrorçuları tərəfindən Azərbaycan şəhəri Xocalının yer üzündən silinməsi ABŞ-da ilin ən dəhşətli faciəsi kimi tanınmışdı. Faciənin icraçılarından biri olan 366-cı motoatıcı alay Rusiyaya çağırılaraq ləğv edildi. Lakin onun insanlığa sığmayan vəhşiliklər törədən zabitlərindən bir nəfər də cinayət məsuliyyətinə cəlb olunmadı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Xocalı faciəsinin 10 illiyi ilə əlaqədar Azərbaycan xalqına müraciətində deyilir: “... bu qəddar və amansız soyqırım aktı insanlıq tarixinə ən dəhşətli terror aktlarından biri kimi daxil oldu... Azərbaycan xalqı və hakimiyyəti qarşısında dünya dövlətlərinə, parlamentlərinə və ictimaiyyətinə Xocalı soyqırımı və ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər haqqında bütün həqiqəti çatdırmaq vəzifəsi durur. Bu, bizim Xocalı soyqırımının qurbanları qarşısında vətəndaşlıq və insanlıq borcumuzdur. Digər tərəfdən, bu faciənin beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət alması, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının cəzalandırılması ümumilikdə insanlığa qarşı yönəlmiş belə qəddar aktların bir daha təkrar olunmamasının vacib şərtidir”.

Xocalıda baş verən qətllər xarici kütləvi informasiya vasitələrinin diqqətindən kənarda qalmayıb. Dünyanın ən nüfuzlu KİV-lərində Xocalı şəhərində erməni terrorçuları və quldur birləşmələri tərəfindən törədilən soyqırım faktını təsdiq edən faktlar yer alıb.

**“Vashington Post”** qəzeti: “Dağlıq Qarabağ qurbanları Azərbaycan şəhərində torpağa tapşırıldılar. Qaçqınlar deyirlər ki, ermənilərin hücumu nəticəsində yüzlərlə insan qətlə yetirilib. Həlak olan 7 nəfərin cəsədi bu gün göstərildi, onlardan üçü qadın, ikisi isə uşaq idi. 120 qaçqın Ağdam hospitalında yerləşdirilib, onlardan bir çoxunun bədənində deşilmiş yara izləri var”.

**“Times”** qəzeti: “Erməni əsgərləri yüzlərlə qaçqın ailəsini qırdılar. Sağ qalanlar məlumat verirlər ki, erməni əsgərləri çoxu uşaq və qadın olan 450-dən çox azərbaycanlını qətlə yetiriblər. Yüzlərlə, bəlkə də mindən çox insan itkin düşüb. “Onlar gülləyirdilər, gülləyirdilər, gülləyirdilər” - bu sözləri Xocalıdan qaçan digər qadın və uşaqlarla birgə, Ağdama gələn Raziyə Aslanova da söyləyirdi. O deyirdi ki, əri Kənan və oğlu qətlə yetiriliblər, qızı isə itkin düşüb.”

**“Times”** qəzeti: “Qırğının üstü açıldı. Həlak olmuş 60-dan çox insanın, o cümlədən qadın və uşaqların cəsədi Dağlıq Qarabağın təpəliklərindəki yamaclarda aşkar olundu. Bu, azərbaycanlıların erməni hərbçiləri tərəfindən qırğına məruz qalması faktını təsdiqlədi. Yüzlərlə qaçqın bu günə kimi axtarışdadır”.

**“Times”** qəzeti: “Çoxları şikəst edilmişdi, bir qız uşağının isə yalnız başı qalmışdı.”

**“İzvestiya”** qəzeti: “Videokamera qulaqları kəsilmiş uşaqları göstərdi. Bir qoca qadının isə sifətinin bir hissəsi kəsilib götürülmüşdü. Kişilərin başının dərisi soyulmuşdu.”

**“Sunday Times”** qəzeti: “Tomas Qolts erməni əsgərləri tərəfindən törədilmiş qırğın barədə məlumat verən ilk reportyor idi. Onun hazırladığı reportajda deyilir: “Xocalı Azərbaycanın münbit şəhərlərindən biri idi. Bura torpağı becərən və ev quşları saxlayan azı min azərbaycanlının yaşadığı bir yurd idi. Keçən həftə bu şəhər yer üzündən silindi”.

**“Financial Times”** qəzeti: “Ermənilər Ağdam tərəfə istiqamətlənən qaçqınlar dəstəsini güllələdilər. Azərbaycanlılar 1200-ə yaxın cəsəd saydılar. Livandan olan kinooperator onun ölkəsinin varlı daşnak ictimaiyyəti tərəfindən Qarabağa muzdlu döyüşçülər və silah göndərildiyini təsdiqlədi.



**“İzvestiya”** qəzeti: “Mayor Leonid Kravets: “Mən öz gözlərimlə təpəlikdə yüzə yaxın cəsəd gördüm. Bir oğlan uşağının başı yox idi. Hər yerdə xüsusi amansızlıqla qətlə yetirilən qadın, uşaq, qoca meyidləri var idi”.

**“Financial Times”** qəzeti: “General Polyakov bildirdi ki, 366-cı alayın erməni milliyyətindən olan 103 qulluqçusu Dağlıq Qarabağda qaldı.”

**“La Mond”** qəzeti: “Ağdamda olan əcnəbi jurnalistlər qətlə yetirilən qadın və uşaqların içində başının dərisi soyulmuş 3 nəfər gördülər. Bu, Azərbaycan təbliğatı deyil, reallıqdır”

**“Valer actual”** jurnalı: “Bu muxtar regionda erməni hərbi birləşmələri Yaxın Şərqdən olanlarla birlikdə ən müasir hərbi texnikaya, eyni zamanda, vertolyotlara malikdirlər. ASALA Suriya və Livanda yerləşən hərbi düşərgələr və silah anbarları ilə təchiz edilib. Ermənilər 100-dən çox müsəlman yaşayış məntəqəsində qırğın törədərək Qarabağ Azərbaycanlılarını məhv etdilər.”

**“Krua l’Eveneman”** jurnalı: “Ermənilər Xocalıya hücuma keçdilər. Bütün dünya eybəcərləşdirilmiş insan cəsədlərini gördü. Xocalıda mindən çox azərbaycanlının qətlə yetirildiyi deyilir”

Bəli, dünya mediası Xocalıda törədilən vəhşiliklərə biganə qala bilmədi.

Azərbaycan dövləti Xocalı faciəsini bütün dünyaya tanıtdırmaq üçün müntəzəm iş aparır.

Hər il Prezident Administrasiyası tərəfindən xüsusi tədbirlər proqramı təsdiqlənir və icra edilir. Bu baxımdan, Heydər Əliyev Fondunun xidmətlərini xüsusi qeyd etmək lazımdır. Fond bəşəriyyətin ən böyük faciələrindən olan Xocalı soyqırımı haqda faktların dünyaya çatdırılması istiqamətində sistemli və ardıcıl fəaliyyət göstərir.

## Faciənin günahsız qurbanlarının qisası alındı

Bu gün hər bir azərbaycanlı bəşər tarixində ən qanlı cinayətlərdən biri olan Xocalı soyqırımının günahsız qurbanlarının əziz xatirəsini ehtiramla yad etməklə yanaşı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində düşmən üzərində qazandığı tarixi Qələbənin sevincini yaşayır. Qəhrəman ordumuz Ali Baş Komandanımızın əmri ilə 2020-ci il sentyabrın 27-də əks-hücuma keçdi və “Dəmir yumruq” əməliyyatı ilə düşməni darmadağın edərək doğma Qarabağımızı 28 illik əsarətdən xilas etdi. Şanlı Azərbaycan Ordusu tərəfindən məhv edilən düşmən qüvvələri içərisində Xocalı soyqırımının icraçılarından bir neçəsi məhv edildi, bu dəhşətli faciənin günahsız qurbanlarının qisası alındı. Xocalıda, eləcə də Qarabağ uğrunda həlak olan bütün şəhidlərimizin ruhu əbədi rahatlığa qovuşdu.

*Dilqəm Quliyev,*
*pedaqogika üzrə elmlər doktoru, professor*

**— Vətən müharibəsinin qəhrəman əsgərləri —**

# “Azərbaycan əsgərinin rəşadətini sözlə ifadə etmək mümkün deyil”

*Ordu dövlətin əsas atributlarından biridir. Əgər bir dövlət güclü orduya malikdirsə, onun ərazi bütövlüyü etibarlı və əbədidir. 44 günlük Vətən müharibəsində rəşadətli ordumuz öz gücünü bütün dünyaya nümayiş etdirdi. Güclü zabit və əsgərlərdən, ən əsası müasir silahlardan təşkil olunmuş Ordumuz uzun illərdən bəri həsrətində olduğumuz qələbə sevincini bizə bəxş etdi. Doğma torpaqlarımız mənfur düşmənin tapdağından azad edildi. Biz bir millət olaraq bu müqəddəs amal uğrunda düşmənin başı üzərində bir yumruğa çevrildik. Bu xalqın qəhrəman övladları vətənin azadlığı uğrunda silaha sarılıb, ölümə meydan oxudular. Ordumuzun məhz vətənpərvər zabit və əsgərlərdən təşkil olunmasıdır ki, biz Qarabağı işğaldan azad etdik. Təəssüf ki, Vətən müharibəsi itkisiz başa gəlmədi. Neçə-neçə cəsur vətən övladı canından keçərək, adını şanlı zəfər tariximizə qızıl hərflərlə yazdırdı. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əmri ilə minlərlə azərbaycanlı gənc ordu sıralarına qoşuldu. Onlar mülki həyatda fəaliyyətini yarımçıq qoyaraq, cəbhəyə yollandılar.*

*Həmin vətənpərvər gənclərdən biri də Tofiq İmanlıdır. Milli Olimpiya Komitəsində mütəxəssis kimi çalışan Tofiq müharibə başlayan gündən döyüşə yollanıb.*






Vətən müharibəsində iştirak edən müsahibimiz həmin günlərin sevincini bizimlə bölüşüb.

“Olimpiya dünyası” qəzeti budəfəki sayında Tofiq İmanlının keçdiyi döyüş yolundan bəhs edən müsahibəni çoxsaylı oxucularına təqdim edir.

Məlumat üçün bildirək ki, Tofiq İmanlı 1993-cü ildə Bakı şəhərində anadan olub. Ali təhsilini Türkiyədə alan müsahibimiz 2005-ci ildə vətənə qayıdıb. O, 2017-ci ildən bu günə kimi Milli Olimpiya Komitəsində mütəxəssis kimi işləyir.

***- Tofiq, müharibə başlayan günlərdə azərbaycanlı gənclərin əksəriyyəti ordu sıralarında döyüşmək üçün hərbi komissarlıqlara müraciət etmişdi. Bundan başqa həmin qurumdan ehtiyatda olan hərbi çağırışçılara zənglər edildi, səfərbərliyə cəlb olundular. Bəs sən necə oldu ki, yenidən ordu sıralarına yollandın?***

- Yadınızdadırsa, hələ müharibədən əvvəl ermənilər Tovuzda təxribat törətmək istəyirdilər. Həmin vaxt artıq müharibə abu-havası yaranmışdı. Hadisələrin cərəyan etdiyi ərəfələrdə hərbi komissarlıqdan mənə zəng gəldi. Mənimlə maraqlandılar. Harada olduğumu və hansı işlə məşğul olduğumu qeydə aldılar. Artıq bilirdim ki, nəsə baş verəcək. Buna hazır idim. Onu deyim ki, mən hərbçi ailəsində anadan olmuşam. Atam birinci Qarabağ döyüşlərinin iştirakçısı olub. Onun hərbidən danışdığı hadisələri xatırlayırdım. Ola bilməzdi ki, belə bir məqamda mən müharibəyə yollanmayım. Bildirim ki, 2015-ci ildə Qazaxda yerləşən “N” saylı hərbi hissədə artilleriya bölüyündə hərbi xidmət keçmişəm. Hətta 2016-cı ildə aprel döyüşlərində də iştirak etmişəm. 2017-ci ildən ordu sıralarından tərxis olunmuşam.

Mən hərbi komissarlıqdan gələcək zəngi səbrsizliklə gözləyirdim və zəngdən sonra birbaşa cəbhə xəttinə yollandım. Getdiyim günün səhərisi artıq müharibənin başladığını hiss etdim. Ermənilər bizim briqadanın üzərində dron uçururdular. Bizim ordumuz həmin dronu məhv etdi. Lakin döyüş əhval-ruhiyyəsi mənə yad deyildi. Qeyd etdiyim kimi, 5 il əvvəl aprel döyüşlərində müharibənin əsl üzünü görmüşdüm. Ağır artilleriyadan açılan atəş səslərinə öyrəşmişdim.

Məni tamamlama tağımında yerləşdirdilər. Yəni döyüş vaxtı hər hansı bir mövqedə canlı qüvvə çatışmazlığı yaranarsa, həmin tağımın əsgərləri o boşluğu doldurmalı olur. Bu müddət ərzində piyada təlimlərində iştirak etdim. Müharibədə hər şey ciddi və məsulliyyətlidir. Təlim keçmədən, kor-korana döyüşlərə qoşulmaq mümkün deyil. Odumuzda qulluq edən zabitlər biz əsgərləri döyüşə hazırlaya bilirdilər.








## “Əsrlər boyu erməni terroruna məruz qalan bir millətin övladı buna nə vaxtsa cavab verməyə borclu idi”

***- Həmin an keçirdiyin hissləri necə ifadə edə bilərsən?***

- Hərbi komissarlıqdan avtobusa minib, yola düşəndə oradakı abu-hava, insanların bizi necə hərarətlə alqışlamağı bizə əlavə bir qüvvə verirdi. Həmin anda hər birimiz bir yumruğa çevrildik. Yol boyu sevinirdik. Axı bu yola biz torpaqlarımızın azadlığı uğrunda çıxmışdıq. Çətin məqamda da birliyimizi qoruyub, saxladıq. Nəticə isə göz qabağındadır. Heç vaxt rast gəlmədiyim insanlar üç ay ərzində illərin doğmasına çevrildi. Torpaqlarımızın illərdən bəri işğal altında olması bizi hər zaman sıxıb, rahat buraxmayıb. Ürəyində vətən, yurd sevgisi olan hər bir azərbaycanlı məhz bu məqamı gözləyirdi. Əsrlər boyu erməni terroruna məruz qalan bir millətin övladı buna nə vaxtsa cavab verməyə borclu idi. Ordumuz elə irəliləyirdi ki, əlavə canlı qüvvəyə ehtiyac qalmırdı. Amma biz hər an əmr gözləyirdik. Kəlbəcər istiqamətində döyüşlərə hazırlaşırdıq. Biz Şuşanın alınmasından sonra Kəlbəcərə getməli idik. Sadəcə, noyabrın 10-da müharibə dayandı.

***- Qarabağın işğaldan azad olunması hər birimizin arzusu idi.***

- Bəli. Bu bəlkə də ən böyük arzularımızdan biri idi. Düşünürəm ki, özgə torpağında firavan həyat qurmaq mümkün deyil. Cəsur Azərbaycan əsgərinin qəhrəmanlığı qarşısında onlar qorxaraq təslim oldular. Həmin torpaqlara ilk qədəm qoyan Azərbaycan əsgərinin rəşadətini heç bir sözlə ifadə mümkün deyil.

Hər bir insanın özünəməxsus arzu və istəkləri olur. Onları həyata keçirmək üçün həyatda mübarizə aparır. Düzdür, heç nə asan əldə olunmur. Bəzən çox görmək istədiyin, arzuladığın bir yerə gedə bilmirsən. Çünki həmin yer bu və ya digər səbəbdən sənin üçün əlçatmazdır. Bax, Qarabağ bizim üçün elə bir yer idi. İllərdən sonra orada olmaq, ayağını Qarabağ torpağına basmaq hamı kimi mənim də ən böyük arzum idi. Bu hisslər sözlə ifadə olunmur. Sanki aya ilk dəfə ayaq basan insanın keçirdiyi hissləri biz həmin torpaqlarda keçirdik.

Biz arxa cəbhədə əlimizdən gələni etdik ki, ordumuzun öndə vuruşan hissəsini təchizatla təmin edək. Döyüşlərdə birbaşa iştirak etməsək də, həmin hissləri yaşaya bildik.

***- İşlədiyin Milli Olimpiya Komitəsinin adı Şuşada yazılıb. Həmin yazının tarixçəsi barədə bizə məlumat verərdin.***

- Şuşada döyüşən bir dostum var. O, bu gözəl şəhərin ermənilərdən azad olunmasında yaxın iştirak edərək, həmin anların sevincini yaşayıb. Bilirsiniz ki, Şuşada evlərin, binaların üzərində hər bir əsgər öz yaşadığı və işlədiyi yerin adını yazmışdı. Mən ondan xahiş etdim ki, işlədiyim Milli Olimpiya Komitəsinin adını orada yazsın. O da sağ olsun, mənim xahişimi yerinə yetirərək, evlərdən birinin divarına “MOK Şuşada” (Milli Olimpiya Komitəsi - A.Ə) sözünü yazmışdı. Düzünü desəm, orada döyüşmüş əsgərlərimizə qibtə edirəm. Çox istəyirdim ki, həmin o sözü mən orada özüm yazım. Əsas odur ki, qədim Şuşa bizimdir. Orada bundan sonra şuşalılar, Şuşa həsrətilə illər boyu alışıb-yanan həmvətənlərimiz yaşayacaq. Biz isə həmin yerlərə qonaq gedəcəyik. Bundan gözəl nə ola bilər ki?

## “Siz həqiqətən də xoşbəxt insansınız”

***- Qələbə xəbərini nə vaxt və necə eşitdiniz?***

“Gecə saatları idi. Həmin vaxt mən keşikdə idim. Düzünü desəm, hələ heç nədən xəbərim yox idi. Növbəni təhvil verib, qaldığımız yerə qayıtdım. Eşitdim ki, müharibənin dayanması ilə bağlı üçtərəfli sənəd imzalanıb. Bu qələbədən xəbər verirdi. Həmin vaxt əsgərlərin əksəriyyəti istirahət edirdilər. Onları oyatdım. Dedim ki, yatmaq vaxtı deyil, durun ayağa, biz qələbə qazanmışıq. Hamımız bir-birimizi qucaqlayıb, təbrik etdik. Bu hissləri sözlə ifadə etmək mümkün deyil. Təlimlər zamanı komandirlərimiz deyirdilər ki, siz həqiqətən də xoşbəxt insansınız. Bu torpaqların alınmasında sizin də payınız var. Bəli, bu bizim qələbəmizdir. Müzəffər Ordumuz düşmənə elə dərs verdi ki, onlar çətin ki, uzun müddət özlərinə gəlsinlər.

***- Düşmən döyüş meydanında ağır məğlubiyyətə uğradı. Bizim əsgərlərimizdə olan ruh yüksəkliyi onlarda yox idi. Bunu hiss edirdinizmi?***

- Onlar özlərinə məxsus hərbi texnikaları, sursatları, şəxsi əşyalarını qoyub qaçırdılar. Ordumuzun gücü sayəsində onlar həm də mənəvi cəhətdən sarsıldılar. Necə olar bilər ki, əsgər ona təhkim olunmuş silahı qoyub və xidmət yerini özbaşına tərk etsin? Onlar əslində nə üçün vuruşduqlarını bilmirdilər. Biz isə bilirdik ki, bu torpaq bizimdir. Ermənilərin yad torpaqlarda yaşamağa, döyüşməyə haqları çatmırdı. Bunun nəticəsidir ki, Qarabağ torpağı illərdən sonra yenidən öz sahiblərinə qayıtdı. Fürsətdən istifadə edib, bu müharibədə canını qurban vermiş şəhidlərimizə Uca Tanrıdan rəhmət, qazi olmuş əsgərlərimizə isə şəfa diləyirəm. Belə mərd oğullar yetişdirən millət həqiqətən də hər cür ehtirama və hörmətə layiqdir.

***Anar Əhmədov***

# Azərbaycan Premyer Liqası: "Neftçi" liderliyini bir qədər də möhkəmləndirdi

***Futbol üzrə Azərbaycan Premyer Liqasında XVI turun oyunları keçirilib. Turun açılış matçında "Səbail" klubu "Sabah" komandasını qəbul edib. "ASCO Arena"da keçirilən görüş meydan sahiblərinin 2:0 hesablı qələbəsi ilə başa çatıb. Oyunda hər iki qolu Amil Yunanov vurub. O, 16-cı və 77-ci dəqiqələrdə rəqib qapısına yol tapıb.***

***Günün digər matçında "Sumqayıt" son ölkə çempionu "Qarabağ" klubunu qəbul edib. Görüş qolsuz heç-heçə ilə başa çatıb.***



Turun ikinci oyun günündə daha iki qarşılaşma oynanılıb. Cari mövsüm iddialı oyunu ilə diqqət çəkən "Zirə" klubu səfərdə autsayder "Keşlə" komandasının qonağı olub. "ASCO Arena" stadionunda təşkil olunan görüşdə qalib müəyyənləşməyib - 2:2. Oyunda hesabı matçın 16-cı dəqiqəsində qonaqların hücumçusu Klesio Bauk açıb. Qoldan üç dəqiqə sonra keşləlilər hesaba tarazlıq gətirib. Nicat Qurbanov adını tabloya yazdırıb. Matçın 21-ci dəqiqəsində Sadio Tunkara meydan sahiblərini hesabda önə çıxarıb. Fasiləyə komandalar "Keşlə"nin 2:1 hesabı ilə üstünlüyü yollanıb.

Fasilədən sonra 60-cı dəqiqədə "Zirə" klubu meydanda azlıqda qalıb. Baş hakim Elçin Məsiyev Dmitrios Çantakiasa qırmızı vərəqə göstərib. Buna baxmayaraq, 73-cü dəqiqədə "Zirə" klubu hesabı bərabərləşdirib. Dmitriy Volkov zirəliləri məğlubiyyətdən xilas edib.

Turun son matçında "Neftçi" komandası "Qəbələ"ni qəbul edib. "Bakcell Arena"dakı qarşılaşma flaqmanın 1:0 hesablı qələbəsi ilə yekunlaşıb. Görüşdə qolu 90+4-cü dəqiqədə Emin Mahmudov vurub.

Beləliklə, XVI turda qeydə alınan nəticələrdən sonra xal ehtiyatını 33-ə çatdıran "Neftçi" liderliyini möhkəmləndirib. Liderdən üç xal geri qalan "Qarabağ" 30 xalla ikincidir. Qeyd edək ki, "Qarabağ" ötən tur "Neftçi"yə uduzaraq, liderliyi əldən vermişdi.

İlk üçlüyü "Zirə" klubu tamamlayır. Qəsəbə təmsilçisinin aktivində 25 xal var. "Sumqayıt" isə 23 xalla 4-cü sırada yer alıb.

Əyalət təmsilçisi "Qəbələ" 18 xalla 5-ci, "Səbail" isə 16 xalla altıncıdır. Aktivində on dörd xalı olan "Sabah" isə yeddinci sırada qərarlaşıb.

Turnir cədvəlinin son pilləsində isə "Keşlə" klubu yer alıb. Paytaxt təmsilçisinin aktivində 14 xal var.

## Böyük Britaniyadan AVRO-2020 ilə bağlı təklif

Böyük Britaniya bu il futbol üzrə Avropa çempionatının bütün oyunlarını öz ərazisində keçirməyə hazırdır. "Sunday Times" nəşrinin yaydığı məlumata görə, belə bir təkliflə UEFA-ya müraciət olunub.

Bildirilir ki, nazirlik azarkeşlərin mayın sonlarınadək stadionlara dönüşü üzrə plan hazırlayıb. Britaniya rəhbərliyi qayıdışın qitənin bir çox ölkəsindən tez mümkünlüyünü açıqlayıb.




Təqvimə əsasən, Londondakı "Uembli" stadionu yarımfinal qarşılaşmaları və iyulun 11-də final matçına ev sahibliyi etməlidir. Amma hökumətdən qeyd ediblər ki, əgər UEFA bütün matçların Britaniyada keçirilməsinə razılıq versə, onlar oyunları qəbul etməyə hazırdırlar.

Qeyd edək ki, AVRO-2020 koronavirus pandemiyası ilə əlaqədar bu ilə təxirə salınıb. Lakin UEFA yarışın adını dəyişməyib. Çempionat qarşılaşmalarının Bakı (Azərbaycan), Sankt-Peterburq (Rusiya), Münhen (Almaniya), Roma (İtaliya), Buxarest (Rumıniya), Kopenhagen (Danimarka), Amsterdam (Niderland), Bilbao (İspaniya), Qlazqo (Şotlandiya), Budapeşt (Macarıstan), Dublin (İrlandiya) və London (İngiltərə) şəhərlərində təşkili nəzərdə tutulub.

## UEFA Gənclər Liqasının cari mövsümü ləğv olundu

UEFA İcraiyyə Komitəsi COVID-19 pandemiyasının turnirlərin təşkilinə göstərdiyi mənfi təsirləri nəzərə alaraq, UEFA Gənclər Liqası turnirinin 2020/2021-ci il mövsümünün ləğv olunması ilə bağlı qərar qəbul edib.

UEFA İcraiyyə Komitəsi tərəfindən bir müddət əvvəl turnirin startının təxirə salınması barədə qərar qəbul olunmuşdu. Lakin ötən müddət ərzində mövcud şəraitin bu beynəlxalq turnirin başlanmasına imkan verməməsi, UEFA Klub Yarışları Komitəsi və Avropa Klublar Assosiasiyası ilə aparılmış məsləhətləşmələrdən sonra Gənclər Liqasının cari mövsümünün ləğvi məqsədəuyğun sayılıb.

Xatırladaq ki, turnirdə "Qəbələ" klubunun müvafiq yaş qrupundan ibarət komandası mübarizə aparmalı idi. Əyalət təmsilçisi martın 4-də 1/32 final mərhələsində Şimali Makedoniyanın "Şkendiya" klubu ilə qarşılaşmalı idi.

## Avroliqada yeni rekord

UEFA Avropa Liqasının 1/16 final matçlarında yeni rekord qeydə alınıb. Ötən həftə oynanılan 16 qarşılaşmada ümumilikdə 59 qol vurulub. Bu isə indiyədək göstərilən ən yaxşı nəticədir və turnirdə yeni rekord hesab edilir.

Qeyd edək ki, 1/16 finalın cavab görüşləri fevralın 24-25-də keçiriləcək.

## XXI əsrin ən çox qol vuran müdafiəçiləri

Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası (IFFHS) XXI əsrdə ən çox qol vuran müdafiəçilərin adlarını açıqlayıb. Siyahıya İspaniya millisinin və "Real Madrid" klubunun kapitanı Serxio Ramos başçılıq edir. Otuz beş yaşlı təcrübəli müdafiəçi XXI əsrdə 126 dəfə fərqlənib. İkinci sırada 104 qolla Yaponiya yığmasının sabiq üzvü Markus Tulio Tanaka qərarlaşıb. XXI əsrdə yalnız bu iki müdafiəçi 100-dən çox qol vura bilib.



IFFHS-in araşdırmasına əsasən, 51 müdafiəçi 50 və daha çox qol vurmağı bacarıb.

Qeyd edək ki, Serxio Ramos 2005-ci ildən "Real Madrid"də çıxış edir. Onun Madrid təmsilçisi ilə müqaviləsi yayda başa çatacaq.



## "Red Bull" öz mühərriklərini istehsal edəcək

Formula 1 komandaları arasında güc nisbətinin fərqli olmasının əsas səbəblərindən biri mühərriklə bağlıdır. Adətən aparıcı zavod komandaları öz mühərriklərindən istifadə etdiklərinə görə yüksək yerlər uğrunda mübarizə aparırlar. Digərləri isə bu mənada çətin vəziyyətdə qalır. Buna misal olaraq "Red Bull"un adını çəkmək olar. Artıq avstriyalılar vəziyyətdən çıxış yolunu da tapıblar.

"Red Bull" 2022-ci ildən fərdi şəkildə öz mühərriklərini istehsal edəcək. Ancaq avstriyalılar bunu "Honda"nın texniki bazası əsasında həyata keçirəcəklər. "Red Bull"u belə bir addım atmağa məcbur edən də elə "Honda"nın gələn ildən Formula 1-dən gedişi olacaq.

"Honda" texnologiyalarından "Red Bull"un farm komandası olan "Alfa Tauri" də yararlanacaq. Ümumilikdə isə mühərrik istehsalı ilə "Red Bull Powertrains Limited" şirkəti məşğul olacaq. Motorlar isə bu komandanın Milton-Keynsdəki bazasında istehsal ediləcək.

Mətbuata açıqlama verən "Red Bull"un məsləhətçisi Helmut Marko "Honda"nın hibrid mühərriklərinə keçməyə hazırlaşdığını söyləyib. O, "Honda" ilə əməkdaşlığın uğura bərabər olduğunu bildirib. Məhz yeni mühərriklər sayəsində komanda rəhbərliyi rəqabətə davamlı olacaqlarına inanır.

* * *

Formula 1 komandası "Red Bull" yeni pilotu Serxio Peres üçün əlavə test yürüşləri təşkil edəcək. Test yürüşü "Toro Rosso" komandasının 2018-ci ildə dünya çempionatında istifadə olunan bolidində təşkil ediləcək. Əlavə test martın 12-14-də Bəhreyndə keçiriləcək rəsmi sınaq yürüşlərindən əvvəl baş tutacaq.



Qeyd edək ki, Formula 1-in yeni mövsümündə S.Peres "Red Bull"da Aleksandr Albonu əvəz edəcək. Ötən mövsüm S.Peres "Racing Point" komandasının heyətində pilotların sıralamasında 125 xalla dördüncü olub.

## "Alfa Tauri" komandası yeni bolidini təqdim etdi

Formula 1 üzrə dünya çempionatında çıxış edən "Alfa Tauri" komandası yeni mövsüm üçün bolidini təqdim edib. Komanda bu barədə rəsmi tvitter hesabından paylaşım edib. Bolidə AT02 adı verilib.

Qeyd edək ki, Formula 1-də 2021 mövsümü martın 26-28-də Bəhreyn Qran-prisi ilə başlayacaq. Azərbaycan Qran-prisi iyunun 4-6-da təşkil olunacaq.



## Onlayn turnirin qalibləri müəyyənləşdi

Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə www.chess.com internet portalında sürətli şahmat (Blitz) üzrə kişi və qadınlar arasında onlayn Sumqayıt çempionatı keçirilib. 3 dəqiqə olmaqla 9 turdan ibarət İsveçrə sistemi üzrə təşkil olunan yarışda 74-ə yaxın zəka sahibi iştirak edib.

Qeyd edək ki, yarış koronavirus infeksiyasının ölkəmizdə yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə bütün idman məktəblərində, cəmiyyət və klublarda təlim-tərbiyə prosesinin müvəqqəti olaraq dayandırıldığından idmançıların ev şəraitində daha da səmərəli keçirməsi, onların yarış təcrübələrinin artırılması üçün onlayn formatda təşkil edilib. Maraqlı idman mübarizəsi şəraitində keçən çempionatda qadınlar arasında Səbinə Rzalı birinci yeri tutub. Aytac Kərimli ikinci, Nurtən Nuriyeva isə üçüncü yerə sahib çıxıb. Kişilərin mübarizəsində Murad İbrahimli bütün rəqiblərini qabaqlayaraq qalib adını qazanıb. Rüstəm Rüstəmov və Yunis Mahmudzadə müvafiq olaraq, ikinci-üçüncü yerləri bölüşürlər. Turnirin qalib və mükafatçıları Gənclər və İdman Baş İdarəsinin Fəxri Fərman, medal və hədiyyələri ilə təltif olunublar.

# FUTBOL

# Avropadan transfer xəbərləri

## İspaniya

“Vilyarreal” klubunun futbolçusu Pau Torresin qiyməti artaraq, transfer məbləği 65 milyon avro olub. Buna baxmayaraq, mərkəz müdafiəçisi Madrid “Real”ının maraq dairəsindədir. 24 yaşlı futbolçunun əvvəl qiyməti 50 milyon olan Torresin avrokuboklardakı uğurlu çıxışı bu məbləğin artması ilə nəticələnib. “Real” rəhbərliyi “Vilyarreal”la danışıqlarda qiymətdə endirimə nail olacaqlarına ümid edir.

Qeyd edək ki, Torresin klubu ilə müqaviləsi 2024-cü ilin yayında başa çatacaq.

Fransanın “Renn” klubunun yarımmüdafiəçisi Eduardo Kamavinqa “Real”a keçmək arzusundadır. İspaniya klubu 18 yaşlı futbolçu ilə maraqlansa da, onu mövsümün sonunda transfer etmək barədə düşünür. Buna səbəb koronavirus pandemiyası ilə əlaqədar yaranan maliyyə böhranıdır. Kamavinqa “Renn”lə yeni müqavilə bağlamağa razılıq verib. Bir şərtlə ki, gələcəkdə məhz “Real”a keçəcək.

“Mançester Siti”nin futbolçusu Emerik Laport da “Real”da çıxış etmək niyyətindədir. Madridlilər də 26 yaşlı futbolçunu heyətinə qatmaq fikrini gizlətmirlər. Paytaxt təmsilçisi komandadan gedəcəyi gözlənilən Serxio Ramosu məhz Laportla əvəzləmək istəyir.



Qeyd edək ki, Laport cari mövsüm 14 oyun keçirib və 1 qol vurub.

“Real” Kasemironu PSJ-yə satmaqdan imtina edib. “Kral klubu”nun hələlik 28 yaşlı yarımmüdafiəçini satmaq fikrində olmadığı bildirilib.

Qeyd edək ki, Kasemiro bu mövsüm 26 matça çıxaraq, 6 qol vurub və 2 qolun ötürməsini verib.

Bu arada “Real” Serxio Ramosla yeni müqavilə danışıqlarını davam etdirir. Madrid təmsilçisi 34 yaşlı kapitanı ilə hələ razılığa gələ bilməyib. Ramosun illik 12 milyon avro məvacib istədiyi və yalnız bu şərtlə komandada qalacağı bildirilir. “Real” rəhbərliyi isə mövcud maliyyə problemlərinə görə bu məbləği vermək niyyətində deyil. “Real”la mövsümün sonuna qədər müqaviləsi olan Ramosun yeni sözləşmə imzalamayacağı halda, karyerasını İngiltərədə davam etdirəcəyi bildirilir.

## İtaliya

“Milan” Hakan Çalhanoğluna yeni müqavilə təklif edib. A seriyası təmsilçisi türkiyəli yarımmüdafiəçini daha uzun müddət heyətində saxlamaq istəyir. Lakin tərəflər maliyyə məsələsində razılıq əldə edə bilmir. Klub rəhbərliyi futbolçuya ildə 4 milyon avro təklif edir. Hakan isə 5,5 milyon tələb edir.

Qeyd edək ki, Çalhanoğlunun hazırkı müqaviləsi 2021-ci ilin yayında başa çatacaq.

“Milan” “Xetafe”nin futbolçusu Matias Oliveranın transferində maraqlıdır. Oyunçunun müqaviləsində onun sərbəstqalma məbləği kimi 20 milyon avro qeyd edilib. “Milan” bu keçidi yay transfer dövründə reallaşdırmaq niyyətindədir.

Qeyd edək ki, Olivera İspaniyada “Atletiko”nun da maraq dairəsindədir.

* * *

Milanın digər təmsilçisi “İnter” argentinalı Lautaro Martineslə razılığa gəlib. “İnter” 23 yaşlı futbolçu ilə razılaşma müddətini daha bir illik artıracaq. Hətta onun məvacibinin isə 2,5 milyondan 4,5 milyon avroya qaldırılacağı qeyd olunur.

Hazırkı müqaviləsi 2023-cü ilin yayına qədər olan Martines bu mövsüm “İnter”də 32 oyunda 13 qol vurub, 7 məhsuldar ötürmə edib.

* * *

“Tottenhem”in yarımmüdafiəçisi Xın Min Son karyerasını İtaliyada davam etdirə bilər. Cənubi Koreya millisinin üzvü “Yuventus”un maraq dairəsinə düşüb. Turin təmsilçisi 28 yaşlı hücumameyilli oyunçunun keçidi üçün londonlularla danışığa başlayıb. “Qoca sinyora” bu transfer müqabilində yayda 89,5 milyon avro xərcləməyə hazırdır. Qeyd edək ki, asiyalı futbolçunun “Tottenhem”lə müqavilə müddəti 2023-cü ilin yayına qədərdir.

* * *

İtaliya A Seriyası təmsilçisi “Speziya”nın futbolçusu Simone Bastoni klubunu dəyişə bilər. Sol cinah müdafiəçisi “Napoli” və “Atalanta”nın maraq dairəsindədir. Hər iki klub 24 yaşlı italiyalını yay fasiləsində heyətinə cəlb etməyi planlaşdırır.

Qeyd edək ki, Bastoninin müqaviləsi 2022-ci ilin yayında başa çatacaq.

## İngiltərə




“Yuventus”un fransalı futbolçusu Adrian Rabyo karyerasını İngiltərə Premyer Liqasında davam etdirə bilər. Yarımmüdafiəçi “Everton”un hədəfinə düşüb. Klub 25 yaşlı futbolçunu yayda transfer etməyi planlaşdırır. 2020-ci ilin yayında Rabyonun keçidini reallaşdırmaq istəyi gerçəkləşməyən “Everton” hədəfinə mövsümün sonunda çatmaq arzusundadır.

Qeyd edək ki, futbolçu cari mövsümün 28 oyununda 1 qol vurub.

* * *

“Çelsi”də çıxış edən Hakim Zieş London təmsilçisindən ayrılmağa qərar verib. Səbəb baş məşqçinin buna 27 yaşlı mərakeşli yarımmüdafiəçinin əsas heyətdə yer verməməsidir. Baş məşqçi Tomas Tuxel afrikalı legionerə ehtiyat oyunçu kimi baxır. Bu da Hakimin ürəyincə deyil. O, yay transfer pəncərəsində klubunu dəyişmək niyyətindədir. Zieşlə İtaliya təmsilçiləri “Yuventus”la “Milan” maraqlanır.

Qeyd edək ki, cari mövsüm 19 oyunda şans qazanan Zieş 2 qol vurub.

* * *

Çağlar Söyüncü İngiltərənin “Lester” klubu ilə müqaviləni uzatmağa qərar verib. Premyer Liqa təmsilçisi digər klubların maraq dairəsində olan 25 yaşlı mərkəz müdafiəçisini saxlamaq üçün ona yeni təklif göndərəcək.

Çağların “tülkülər”lə indiki müqaviləsi 2023-cü ilin yayında başa çatacaq. Klub rəhbərliyi Söyüncü ilə yaxın günlərdə danışıqlara başlamağı planlaşdırıb.

Qeyd edək ki, müdafiəçi cari mövsüm 15 oyun keçirib.

* * *

“Mançester Yunayted”in futbolçusu Edinson Kavani klubla müqaviləni yeniləmək niyyətindədir.

Bu barədə “The Telegraph” nəşri məlumat yayıb. 34 yaşlı hücumçu “qırmızı şeytanlar”da qalmağa maraqlıdır. Ona görə də 2021-ci ilin yayında bitəcək müqaviləsini uzatmaq istəyir.

Qeyd edək ki, Kavani bu mövsüm 17 matça çıxıb və 6 qol vurub.

“Ayntraxt” klubunun hücumçusu Andre Silva “Mançester Yunayted”in transfer siyahısına düşüb.

25 yaşlı portuqaliyalı mançesterlilər üçün ehtiyat variant hesab olunur. Dortmund “Borussiya”sının futbolçusu Erlinq Halandın keçidi baş tutmasa, Premyer Liqa təmsilçisi diqqəti Andrenin transferinə yönəldəcək.

Qeyd edək ki, cari mövsümün 22 oyununda 19 qol vuran forvard İspaniya “Atletiko”sunun da maraq dairəsindədir.

## Almaniya

“Bavariya” İngiltərə “Norviç”inin futbolçusu Maks Aaronsun transferi ilə bağlı danışıqları davam etdirir. Britaniyalılar “pivəçilər”dən 21 yaşlı futbolçu üçün 35 milyon funt sterlinq tələb edir.

Premyer Liqaya qayıtmağı hədəfləyən komanda aparıcı müdafiəçisinin qiymətində güzəştə getməyi planlaşdırmır. Lakin Çempionşipin liderinin qoyduğu qiymət “Bavariya”nı qane etmir.

Qeyd edək ki, Aarons “Mançester Yunayted” və “Barselona”nın da transfer siyahısında yer alıb.







Dünya idmanı



# Atlantik okeanını qayıqda üzüb keçən ən gənc qadın



Britaniyalı üzgüçülük müəllimi Jasmin Harrison Atlantik okeanını qayıqla üzüb keçən ən gənc qadın olub. Müəllimliklə yanaşı, eyni zamanda, restoranda işləyən qız ötən ilin dekabr ayında Kanar adalarındakı La Gomeradan ayrıldıqdan sonra səyahətə başlayıb. Onun Antiquaya çatması 70 gün 3 saat 48 dəqiqə davam edib. Qeyd edək ki, Jasmin Harrisonun 21 yaşı var.

J.Harrisson qeyd edib ki, qayıqda 4 min 828 kilometr (3 min mil) üzüb. Onun sözlərinə görə, səyahət "yaxşı və pis xatirələr"lə yadında qalacaq.

Qeyd edilir ki, müəllimə yolda bir sıra problemlərlə qarşılaşıb. J.Harrisonun qayığı fevralın əvvəlində çevrilib. Bir neçə gün əvvəl bu hadisə yenidən baş verib, buna görə də qız dirsəyindən xəsarət alıb.

## olimpnews.az - sizin saytınız




# Cokoviç və Osaka "Australian Open"in qalibi oldular

Tennis üzrə "Australian Open"də kişilər və qadınlar arasında qaliblər müəyyənləşib. 33 yaşlı raketka ustası serbiyalı Novak Cokoviç finalda rusiyalı Daniil Medvedevə 3 setdə qalib gəlib - 7:5, 6:2, 6:2.

Beləliklə, N.Cokoviç karyerasında 18-ci dəfə Böyük Dəbilqə seriyalı turnirlərin qalibi olub. Bunların yarısı və ardıcıl üçüncüsü "Australian Open"ə təsadüf edib.

Qeyd edək ki, turnirin ümumi mükafat fondu 61 milyon dollar təşkil edib.

Qadınların fərdi mübarizəsində isə qalib adını Naomi Osaka qazanıb. Yaponiyalı tennisçi karyerasında ikinci dəfə Avstraliya açıq çempionatının qalibi olub. N.Osaka ABŞ tennisçisi Cennifer Brediyə iki setdə qalib gəlib (6:4, 6:3).

Naomi Osaka, həmçinin "Böyük dəbilqə" seriyasından olan ABŞ açıq çempionatının da ikiqat qalibidir (2018 və 2020).



# *Olimpiya mükafatçısı külli miqdarda narkotikə görə saxlanıldı*

Üzgüçülük üzrə Olimpiya mükafatçısı Skott Miller saxlanılıb. 46 yaşlı keçmiş idmançı narkotik ticarətində günahlandırılır. Avstraliyalı üzgüçü Sidney yaxınlığında köməkçisi ilə birlikdə polis basqını zamanı tutulub. Onlara 1,6 milyon dollarlıq narkotik maddə daşımaları ittihamı irəli sürülüb.

Qeyd edək ki, Skott Miller 1996-cı il Atlanta Yay Olimpiya Oyunlarında gümüş və bürünc medal qazanıb. O, 100 m məsafəyə batterflayda ikinci, 4x100 metr məsafəyə estafet yarışında üçüncü olub. Miller 1995-ci il dünya çempionatında 100 metr batterflayda qızıl medala yiyələnib.

# Tarixin ən uzun hokkey matçı



Kanadanın Alberta əyalətində "Team Hope" və "Team Cure" adlı həvəskar hokkey komandaları öz aralarında keçirdikləri matçla yeni dünya rekordu müəyyənləşdiriblər. 40 nəfərin növbə ilə oynadığı görüş açıq buz meydançasında baş tutub və 252 saat davam edib. "Team Hope" sonda rəqibinə 2649:2528 hesabı ilə qalib gəlib.

Hokkeyçilər oyun vaxtı -55 dərəcə şaxtada buz üstünə çıxmalı olublar. İdman ləvazimatları yararsız hala düşsə də, oyunçulardan heç biri ciddi xəsarət almayıb.

Xeyriyyə xarakteri daşıyan oyundan 1,8 milyon avro vəsait toplanılıb. Məbləğ xərçəng xəstəliyinin araşdırılması üçün Alberta Universitetinə bağışlanacaq.

Qeyd edək ki, bu əyalətdə oxşar matçlar 2003-cü ildən keçirilir. İlk dəfə bu cür görüş atası onkoloji xəstəlikdən vəfat edən həkim Brenton Sayk tərəfindən təşkil edilib. Budəfəki komandalar 2018-ci ildə qeydə alınmış 251 saatlıq göstəricini daha da yaxşılaşdırıblar.

# Ronaldinyonun anası koronavirusdan vəfat etdi

Dünya futbolunun əfsanəsi Ronaldinyonun anası Migelina Eloi Dos Santos 71 yaşında koronavirus infeksiyasından vəfat edib. Bununla bağlı 40 yaşlı keçmiş hücumçu tvitter profilində qara foto qoyub.

Braziliya millisinin sabiq forvardı 2020-ci ilin dekabrında anasının koronavirusa yoluxduğunu bildirib. Həmin vaxt Migelina Eloi intensiv terapiya şöbəsinə yerləşdirilmişdi.

Qeyd edək ki, 2002-ci ilin dünya çempionu futbolçu karyerasını 16 yanvar 2018-ci ildə başa vurub. Onun son klubu "Fluminense" olub. Ronaldinyo 2005-ci ildə "Qızıl top" mükafatını qazanıb. O, Fransa PSJ-si, İspaniya "Barselona"sı, İtaliya "Milan"ı və digər klublarda çıxış edib.

***Üfuqi***

**3.** 1986-cı ildə Çempionlar Liqasının qalibi olan Rumıniya klubu. **5.** Çempionlar Liqasında ilk het-trik edən ən gənc futbolçu. **7.** ÇL-də müxtəlif illərdə və müxtəlif klublarda baş məşqçilik edən mütəxəssis. **8.** Turnirdə ən çox qol vuran futbolçu. **11.** ÇL-də bir matçda ən çox qol vuran futbolçu. **13.** Turnirdə ən çox oyun keçirən və kuboku qazanan qapıçı. **16.** ÇL tarixində ən çox öz qapısında avtoqol görən klub. **17.** Avropanın ən nüfuzlu futbol yarışında kubok qazanan Şotlandiya təmsilçisi.

***Şaquli***

**1.** Çempionlar liqasının məşhur himninin bəstəkarı Toni... **2.** Turnirdə debüt etmiş afrikalı legioner. **4.** Kapitan kimi üç dəfə baş mükafata sahib çıxan futbolçu. **6.** ÇL-in finallarında ən çox məğlub olan klub. **9.** Kubokun qeyri-rəsmi adı "Böyük...". **10.** Qitənin ən nüfuzlu yarışının son mükafatçısı. **11.** Ən çox mükafat qazanan komanda "Real...". **12.** "Milan"ın əfsanəsi. **14.** ÇL-də qol vuran ən yaşlı italiyalı. **15.** Ən çox qapısına penalti təyin olunmuş klub.




Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49;
564-74-19